«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 yanvar (Çərşənbə axşamı günü) tarixli 81-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Seşənbə, 4 rəbiülaxir sənə 1337.
7 kanuni-sani sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 70 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## ELAN

Caharşənbə günü, yanvarın 8-i saat 12-də Azərbaycan Məclisi-Məbusanının iclası təyin edildiyi məbuslara elam olunur [bildirilir].

*2-1*

## DÜŞMƏNLƏRİMİZİN FƏALİYYƏTİ

Cavan Cümhuriyyətimizin, xaricən hal və övzasının [vəziyyətinin] necəliyi get-gedə aydınlaşıb, bu gün müəyyən bir şəkil almışdır. Bugünkü dostlarımızın, bugünkü düşmənlərimizin kimlərdən ibarət olduğu artıq bizim üçün aydın və aşkar olan bir həqiqətdir. Bu isə bizdən ötrü yaxşıdır. Çünki, düşmənin özü bir o qədər qorxulu deyildir. Qorxulu şey, düşmənin kim olduğunu və nerəmizə zərbə endirəcəyini bilməməzlikdir.

Hal-hazırda istiqlalımızın və bizzat [şəxsən] özümüzün nə növ düşmənlər təcavüzatına məruz qaldığımızı görməkdə və bu düşmənlərin nerələrimizi təhdid altına aldığını da aşkara sezməkdəyik.

Bugünkü düşmənimiz üçdür: ermənilərin "Daşnaksaqan" partiyası, rusların "Vahid Rusiya" tərəfdarları və bir də bunların "sosialist" namını daşıyan müxtəlif firqələri.

Daşnaksaqanların bizə qarşı ibraz etdikləri [göstərdikləri] düşmənçilik, əksərən cismani bir düşmənçilikdir. Onların fəaliyyəti, hüdudumuza soxulmaqda, əhalimizi qırmaqda və başlarına ənvai [müxtəlif] müsibətlər gətirib yer və yurdlarından fariq olmaq məcburiyyəti qarşısında qoymaqda ibraz olunur.

"Sosialist" namını daşıyan firqələr isə, bizimlə hələlik mənəvi bir mübarizə başlayıb, bu mübarizədə əksərən fəhlə orqanizatsiyalarına və müxtəlif sayuzlar təşkilatına istinad edir. Bunların fəaliyyəti nəticəsini, keçən günlərdəki zabastovkalardan gördük.

"Vahid Rusiya" tərəfdarları isə, Bakı Rus Milli Komitəsindən ibarət olub, "rus kəndləri mənafeyini müdafiə etmək" şüarı altında sabiq rus hökumətinin politikasını yeritməklə, bizə və istiqlalımıza qarşı politiki bir mübarizə açmaq fəaliyyətini göstərirlər. Rus kəndlilərinin guya Azərbaycan məmurları tərəfindən "zülümlərə" düçar olduğu haqqında qəzetələrdə qışqırıq salmaq, Müttəfiqlərə bizdən haqq-nahaq şikayətlər etmək, Azərbaycanı rus mühacirləri ilə doldurmaq və hər bir şəhərimizdə, hər qəsəbəmizdə rus milli ittifaqı təşkili ilə hökumət içində bir hökumət olmaq işləri bunların fəaliyyəti nümunələrindəndir. Hətta özlərinə məxsus bir qoşun qüvvəsi əldə etmək niyyəti dəxi bunların fikrini ciddi surətdə işğal etməkdədir. Bu yolda büyük ümidləri Biçeraxova və sabiq rus qoşununun bir para zabitanı [zabitləri] qisminədir.

Bunlardan əlavə, Rus Milli Komitəsi bu axır günlərdə başqa bir politika yeritmək işinə dəxi girişmişdir.

"Yedinaya Rossiya" adlı qəzetələrinin keçən günlərdəki bir nömrəsinin baş məqaləsində yazırlar ki, Azərbaycan isitiqlalı məsələsini "həll etmək" üçün "referendum" kimi bir şey yapmalıdır. Yəni ümum Azərbaycan əhalisinə müraciət edib cavab istəməlidir ki, görək aya Azərbaycanın müstəqil bir hökumət şəklində yaşamalarını istəyirlər, yoxsa Rusiyaya mülhəq olmaq [birləşmək] arzusundadırlar? Qəzetə əmindir ki, bu cürə müraciətin nəticəsində Azərbaycan məsələsi[ndə] Rusiyaya mülhəq olmaq qərarı hasil edilər. Çünki, qəzetənin zə'mincə [gümanına görə], Azərbaycanda yaşayan rusların Rusiyaya mülhəq olmaq arzuları mühəqqəq bir əmr [qəti bir iş] imiş. Azərbaycandakı ermənilər dəxi Azərbaycanın Rusiyaya mülhəq olmalarını istəyəcəklərmiş. Azərbaycan müsəlmanları isə genə əksəriyyətlə ilhaq tərəfdarı olacaqlarmış. Ondan ötrü ki, Azərbaycan torpağında Azərbaycan Hökumətindən və Azərbaycan istiqlalından narazı olan müsəlmanlar çox imiş. Bu cürə bir politika yeritmək niyyətiylədir ki, həman qəzetənin srağagünkü nömrəsində böylə bir xəbər oxuduq ki, guya Muğan çölündə yüz nəfər müsəlman və həştad nəfər ruslar kəndlilərindən mürəkkəb [ibarət] bir ictima [yığıncaq] vaqe olub, Muğan torpağı haqqında müzakirədən sonra bu qərara gəlibdirlər ki: "Muğan çölü vahid Rusiyanın ayrılmaz bir hissəsidir."

Əlbəttə, hələlik Azərbaycan dövləti daxilinə keçməmiş olan Lənkəran uyezdi və Muğan çölündə ağalıq edən ruslar, buraların müsəlmanlarını və baxüsus [xüsusilə] işdən xəbərdar olmayan kənd əhlini qandırmaq [aldatmaq], cəbr etmək və aldatmaq kimi müxtəlif vasitələrlə istədikləri "qərarlar" ittixazına [qərar alınmasına] məcbur edə bilər. Vəilla [yoxsa], yüz ildən artıq bir müddət ərzində rus istibdadının olmazın məşəqqətlərinə məruz qalan müsəlman, öz xoşuna qalsa, təkrar bu məşəqqətlərə təhəmmül etməyi [dözməyi, qatlaşmağı] azad və asudə yaşamağa tərcih verərmi? Buna kim inanar? Heyvan heyvanlığı ilə cəbr və zülümdən qaçmağı özünə borç bildiyi halda, Muğan çölünün müsəlman kəndliləri bilməzlərmi? Halbuki orada bu gün ağalıq edən qoşun hissələrinin vurub dağıtmaq, kəsib qırmaq kimi zülümlərinin acılığından şikayət edən Lənkəran və Muğan müsəlmanlarının fəryadları qulaqlarımızı dəng etməkdədir!

Bəs, düşmənlərimiz və onların fəaliyyəti gözümüz önündədir; vəzifəmiz, düşmənin fəaliyyətinə qarşı əks-fəaliyyət göstərmək və bu növlə onların fəaliyyətini atil [nəticəsiz] etmək və əsərsiz [təsirsiz] buraxmaqdan ibarət olmalıdır. Bu yolda hökumətimizlə bərabər camaatımız dəxi kamali-ciddiyyətlə işləyib, hər kəs və hər bir partiya bu mübarizə işində əlindən gələn köməyi Hökumətimizdən müzayiqə etməməlidir [əsirgəməməlidir]. O köməyin nədən ibarət olması xüsusunda fikir və mülahizeyi-acizanəmizi xüsusi bir məqalə surətində gələcək nömrəmizdə ənzari-qareinə [oxucuların nəzərinə] təqdimini vəzifəmiz cümləsindən add [hesab] edirik.

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN HÖKUMƏTİNİN NOTASI

Kanuni-saninin 5-ində Azərbaycan Hökuməti Xariciyyə Nəzarəti, erməni hökumətinə böylə bir nota teleqrafı çəkmişdir:

*"İrəvan Erməni Cümhuriyyəti Xariciyyə nazirinə.*

*Aldığımız məlumata görə, İrəvan quberniyası müsəlmanları külli miqdar müsəlləh [silahlı] erməni qüvvələrinin təcavüzlərinə uğrayırlar. Müsəlləh ermənilər, şəhərlərdə və kəndlərdə müsəlmanları qarət edir, öldürür, silahlarını əllərindən alır və cəbrən özlərinə tabe edirlər. Ermənilərin hücumuna qarşı bizdən kömək istəyirlər. Varid olan [gəlib çatan] məlumata nəzərən, ermənilərin təqibindən qaçıb Araz çayından keçən müsəmanların yalnız çayda qərq olanlarının miqdarı 300-ü mütəcavizdir [keçir]. Bundan əlavə bizə xəbər verirlər ki, son zamanlar Qazax yaxınındakı erməni kəndlərinə külli miqdarda nizami erməni əsgəri toplanır. Bu hərəkətlər Azərbaycanın həqqi-hakimiyyətini xələldar etməkdir. Hökumətin fövqdə məzkur vəq'ələri [yuxarıda deyilən hadisələri] Erməni Cümhuriyyəti hökuməti nümayəndələrinə yetirərək əvvəla erməni qoşunlarının İrəvan quberniyasındakı müsəlmanlara etdikləri təcavüz və təərrüzlər müqabilinə [hücumlar qarşısında] və saniyən [ikinci olaraq] həman qoşunların İrəvan quberniyasında Azərbaycan Cümhuriyyətinin ayrılmaz hissəsini və müsəlmanlarla məskun olan yerləri işğal etmələri müqabilinə protesto edir. Hökumətim əmindir ki, təcavüz və təərrüzlərin və iki dost qonşu cümhuriyyətin münasibatında [münasibətlərində] küdurət çıxara biləcək hərəkətlərin dayandırılması haqqında tədbirlər görüləcəkdir.*

*Xariciyyə naziri əvəzinə*
*Adil xan Ziyadxanov"*

## İRƏVAN: ERMƏNİ-MÜSƏLMAN MƏSƏLƏSİ

Açıq görünür ki, qədimdə, ya hazırda, daha doğrusu hər vaxtda beynəlmiləl zühur edən siyasi-ictimai əlaqələrə ən sadiq qalan və ona bihəqqin riayət edən bir camaat varsa, o da müsəlman camaatıdır.

Bu hal, müsəlmanların qüvvətli zamanlarında da, qüvvətsiz vaxtlarında da görünmüşdür.

Böyləliklə, indiki bu bolşevizm, demokratizm əsaslarının böyük rollar oynadığı dövrədə genə bu şüarların mahiyyətinə ən sadiq qalan və riayət edən yeganə bir ünsür müsəlmanlardır.

Necə ki, Azərbaycanda müstəqil hökumət təşkil etdiyimiz halda, məmləkətimiz daxilində yaşayan qeyri-müsəlman tabelərimizlə ictimai və siyasi əlaqəmizi öylə bir halda yürüdürüz ki, bizim bu əlaqəmiz bolşevizm və demokratizm şüarlarının bəlkə bir dərəcə fövqündə bulunmaqdadır.

Tabeiyyətimizdə bulunan qeyri-müsəlmanların həyatı, məişətlərinə, dini, milli işlərinə, mədəni fəaliyyətlərinə müdaxilə etmədiyimiz kimi, məmləkətimizi idarə edən hökumət dairələrinin aşağıdan yuxarıya qədər hər təbəqəsində müsəlmanlardan artıq qeyri-müsəlmanlara məmuriyyətlər verməklə də, hökumətimiz işlərində iştirak etdirməkdəyiz.

Daxildə bu növ əlaqə ilə bulunduğumuz kimi, xaricən qonşularımızla da bu demokratiya üsuluna ən sadiqanə riayət edən biziz. Qonşuluğumuzda təşəkkül edən gürcü və erməni demokratik hökumətləri ilə hüsn-münasibət saxlamağa və sadiqanə əlaqə idamə etməyə [davam etdirməyə] ən artıq biz müsəlmanlar mail və arzukeşiz. Qonşularımızın həqiqi tarixi, etnoqrafi sərhədlərinə təcavüz, heç bir vaxt, "məcbur olmazsaq" xatirimizdən belə keçməz. Nalayiq təcavüzlərlə qonşu demokratlarının narahatlığını arzu etməyiz. Bu hallarımız eyni ilə göz önündədir. Bu hal isə – indiki vaxtda – bacarmadığımızdan deyil, bəlkə sadiqanə və demoktarik hərəkatımızdan irəli gəlməkdədir.

Demokratiya hüququnu riayətən, hüsn-münasibat ilə keçindiyimiz halda, biz heç bir yerdə qışqırıqlarla, intriqalı reklamlarla özümüzü aləmlərə elam [elan] etməməkdəyiz və bu hallı reklamları da şərəfimizə layiq görməməkdəyiz.

Lakin yanı başımızda yer tutmuş olan erməni qonşularımız isə ardı-arası kəsilməyən qışqırıqlarla və min dürlü intriqalarla donanmış reklamlarla özlərinin ən birinci demokrat ünsürlərindən olduqlarını hər an elam etməkdə bulunduqları halda, demokratiya hüququnun da ən birinci rəhmsiz və insafsız düşmənləri genə özləri olduqlarını hər gün müşahidə etdiyimiz feil və hərəkətləri ilə görməkdəyiz. Erməni millətinin zimamiidarəsini [idarə cilovunu] ələ almış olan pək çox simalar vardır ki, pəncələrindən məsumlar, məzlumlar, daha doğrusu fəqirlər, kəndçilər, fəhlələr, əkinçilər qanı axdığı halda özlərini genə demokrat namı ilə onun-bunun qucağına atmaqdadırlar. Bir tərəfdən demokratiyanı yıxıb, dağıdıb məhv edirlər, digər tərəfdən də özlərini hər süfrənin başında demokrat adlandırırlar.

Tühaf burasıdır ki, özgə millətlərin safdərun [sadəlövh], yaxud haldan bixəbər bəzi demokratları da bunların qanla müləmmə' [boyanmış] əllərini görə-görə demokratlıqlarına bir zaman inanmışlardı. Fəqət məəlşükran [şükür olsun] ki, bu avanturist kütləsi feil və hərəkətləri ilə özlərinin demokrat ünsürü olmayıb, bəlkə demokrat aləminə müzirr [zərərli] bir mikrob olduqlarını həqiqətşünaslara bildirdilər, göstərdilər və göstərməkdədilər. İştə həqiqətpərəst vicdan lazımdır ki, erməni zimamdarlarının [cilov tutanlarının, idarəçilərinin] demokrat aləminə nə dürlü müzirr mikrob olduqlarını hər zaman bilsin, görsün…

İndi isə biz burada ancaq İrəvan müsəlman kəndçi və əkinçilərinin başlarına bunların nələr gətirdiklərindən bir qədər bəhs etmək istəyiriz. Erməni avantüristləri Nikolay taxtından düşürüldüyü vaxtdan etibarən genə əvvəlki padişahlıq zümzümələrini təkrar etməyə başladılar və bu fikrin sövqü ilə də rus qoşunları dava xəttini boşlayıb getdikləri zaman rusların abqonu [rusları ötüb keçdilər], yaxud Nikolayın varisi oldular. Qafqaz xəttində ruslardan qalma cəbbəxanaları və dava ləvazimatını sahibləndilər. Yiyələndikləri bu silahları isə götürüb silahsız müsəlmanların üstünə düşdülər. Fəqət əcəba bunların top, tüfəng, pulemyot və qılıncları qabağında çapalayan insanlar burjualarmı idi, yaxud proletarlar və demokratlarmı idi?

Əvət, bu vicdansız qışqırıqçların top, tüfəng və qılıncı altında can çəkişdirənlər demək olar ki, demokratiyanın ən məsum və məzlum ünsürü olan İrəvan quberniyasının müsəlman kəndçisi və əkinçiləri olmuşdur.

Qışqırıqları ilə demokrat aləmini bizar edən erməni zimamdarları, başda Drolar, Pirumovlar olduğu halda, müsəlləh və müntəzəm erməni qoşunları ilə 1918 sənəsi fevral, mart, aprel ayları ərzində Novo-Bayezid, İrəvan, Sürməli, Eçmiyədzin və Aleksandropol mahallarında müsəlman kəndçi və əkinçiləri ilə məskun 230 para kəndi dağıdıb, yandırıb, talayıb və camaatları ilə belə məhv etmişlərdir.

Bu 230 kəndin fəqir əhalisini, demokratiyanın bünövrəsini təşkil edən minlərcə kəndçiləri və əkinçiləri rəhmsizcə və insanlıqdan kənar bir surətdə qırıb və bir çoxlarını arvadlı, uşaqlı, qocalı evlərə qapayıb, diri ikən yandırmışlardır. Genə bu ilin fevral-mart aylarında erməni general və afserlərinin komandası ilə müntəzəm erməni qoşunları Naxçıvan tərəfinə təcavüz edib, Şərur və Naxçıvan mahallarında bir çox mütəəddid [çox sayda] müsəlman kəndçilərinin damlarını, daxmalarını dağıdıb, əhalisini qırmışlar və mallarını talamışlardır.

Bu vəq'ələr, erməni hökuməti təşəkkül etməzdən əvvəl, Seym zamanında, müsəlman demokratiyası üstünə ermənilər tərəfindən edilmiş təcavüzlərdir.

1918 sənəsi may axırlarında, türklərin sazişi ilə və aralarında qərarlaşmış sərhədlər mövcibincə [əsasında] təşəkkül edən Erməni Cümhuriyyət Hökuməti vaxtından bəri isə İrəvan quberniyasında Basarkeçər, Talın, Milli dərəsi və Çığın dərəsi mahallarından ibarət 80 parəyə qədər müsəlman kəndləri erməni nizami qoşunlarının təcavüzləri ilə məhv və xarab edilmişdir.

Erməni fəsadçılarının təcavüzündən qaça bilən bir çox müsəlman kəndçi ailələri də qaçqınlıq bəlası ilə səhralarda, dağlarda aclıqlar, xəstəliklər içində məhv və tələf olmuşlardır. Erməni müsəlləh dəstələri silahsız və qüvvəsiz bu binəva kəndçilərin haqqında rəva gördükləri zülümlər və təcavüzlər əsnasında insanlığın və demokratlığın heç bir hüququna riayət etməmişlərdir və indi də etməməkdədirlər.

Mütarikə şəraitinə [atəşkəs şərtlərinə] görə Osmanlılar İrəvan quberniyasından çəkildikdən sonra, İrəvan quberniyası müsəlmanlarının halı (qüvvəsiz və topsuz, pulemyotsuz olduqları üçün) daha da fənalaşmışdır. Ermənilərin özlərinə paytaxt etdikləri İrəvan şəhərindəki yerli müsəlmanlar, ermənilərin istilasından sonra evlərini, mallarını, dükanlarını, bağlarını buraxıb getməyə məcbur olmuşlardır. İndi bunların evlərinə, dükanlarına, bağlarına büsbütün ermənilər sahiblənmişlərdir. Böyləcə 23 minə yaxın İrəvanın şəhər müsəlmanları, dinc əhali ailələri evsiz-eşiksiz qalıb, bir çoxları İrana, Türkiyəyə, Gəncəyə, Tiflisə, Bakıya dağılıb, ətraflarda sərsəri bir halda yaşamaqdadırlar.

Osmanlılar çəkildikdən sonra İrəvan quberniyasının sırf müsəlman əkinçi və kəndçilərindən ibarət Şərur, Naxçıvan, Sürməli, Eçmiyədzin mahalları toplu bir camaati-vahidə [vahid bir icma] olduqları münasibətilə, millətlərin hüququna riayət ediləcək məşhur şüarına etimadən siyasi, mədəni və milli işlərini dolandırmaq üçün özlərinə camaat arasından bilintixab [seçki ilə] "Araz Türk Cümhuriyyəti" adı ilə bir hökumət qurmuşlardı və məhəlli [yerli] hökumətləri də müvəqqətən İrəvan yaxınlığında Qəmərli qəsəbəsini mərkəz ittixaz [qəbul] etmişlərdi.

Kəndçi və əkinçilərin intixabından mütəşəkkil müsəlmanların bu demokrat hökuməti, dərhal qonşuları erməni hökumətinə ucuz qiymətlərlə taxıl və ərzaq verməklə hüsn-müamilə göstərməkdə bulunmuşdur. Fəqət müsəlman kəndçilərinin yeni təşkil etdikləri bu demokratik hökumət, Erməni Cümhuriyyət Hökuməti demokratlığına xoş getməmiş, lihaza [buna görə] Erməni Cümhuriyyəti Hökuməti tərəfindən bu günlərdə Qəmərli qəsəbəsi üstünə topla, pulemyotla müsəlləh erməni qoşunları göndərilmişdir. Böyük və müntəzəm qüvvə qarşısında aciz qalmış müsəlman kəndçiləri özlərini şaşırmışlardır. Bu hal üzərinə erməni sərkərdələri də müsəlmanların malına, canına toxunmayacaqlarını elan edərək, əhalini inandırmışlardır. Camaat isə yarı aldanaraq, yarı cəbrən [zorla] silahlarını ermənilərə verərək təslim olmuşlardır. Lakin ermənilərin cümhur hökuməti təslim barəsində müsəlman kəndçilərinə verdiyi sözə sadiq qalmamış, erməni qoşunları qəsəbəyə girdikləri vaxt camaatdan bir neçə dil bilənləri öldürmüş və qalanlarına da evlərini, mallarını halı ilə buraxıb qəsəbədən çıxıb getmələrinə əmr vermişlərdir. Bu vəchlə İrəvan müsəlman demokratlarının mərkəzi Erməni Cümhuriyyəti idarəsinə daxil olmuş və kəndçidən, əkinçidən, kəsəbədən [zəhmətkeşlərdən] ibarət bir çox ailələr də böyləcə qışın soyuq günlərində yerlərindən, yurdlarından çıxarılıb, ətraf mahallara qovulmuşlardır.

Qəmərli demokratları üstünə böylə hüquqşikənanə [qanunsuz] eylədikləri təcavüzdən sonra Erməni cümhur hökuməti indi də İrəvan quberniyası müsəlmanlarının yeganə bir ümid və sığınacaq yerləri qalmış olan müsəlman torpağı Naxçıvan və Şərur mahalları üstünə toplarla, pulemyotlarla mücəhhəz erməni qoşunları göndərmişdir. Topdan, pulemyotdan əliboş və erməni müntəzəm qoşunlarının rəhmsiz təcavüzləri qabağında aciz İrəvan quberniyası müsəlman kəndçi və əkinçilərinin nə hala düşəcəkləri və nə yaman günlərə qalacaqları, haldan məlumdur.

İştə bu hallarla ermənilər Qafqaziya demokratlarının istiqlaliyyət arzularına narəva [rəva olmayan, haqsız] bir mane təşkil edirlər və bu kimi nalayıq hərəkətlərlə də Qafqaz demokratiyasının həyatını zəhərləyirlər.

Fəqət Qafqaziyanın ən sadiq və dinc demokratlarını təşkil edən müsəlmanlar və müsəlmanların bütün kəndçiləri, əkinçiləri, fəhlələri, kəsbkarları öz gələcək müqəddəratlarının eyiləşəcəyini Parlamanımıza, Hökumətimizə və Qafqaziyamıza Müttəfiqlər ordusu namı ilə təşrif gətirmiş anqlosakson irqinin nəcib və həqiqətbin [həqiqəti görən] nümayəndələrinə mühəvvəl edib [tapşırıb], təsəlliyab olurlar [təsəlli tapırlar].

*M[ir] A[bbas] Mirbağırzadə*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Gürcü Teleqraf Agentəliyindən)*

**Yassı müşavirəsi**

Odessadan xəbər verirlər ki, Yassı müşavirəsinin bir komissiyası Milyukov başda olmaq üzrə hal-hazırda İstanbuldadır. Müttəfiq dövlət nümayəndələri ilə mühüm müzakirat davam edir. Bu günlərdə Şerbaşev başda olmaq üzrə Rusiya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] oraya azim olacaqdır [yola düşəcəkdir].

**Gürcüstan istiqlaliyyəti**

Polkovnik Jordaniyaya.

Hərbiyyə nazirindən aldığımız teleqrafı Gürcüstan Baş naziri Jordaniyaya yetirməyi xahiş edirik:

*"Hüsn-təvəccöhlə qəbul olunduq. Gürcüstan istiqlaliyyətinin etiraf [qəbul] ediləcəyinə ümid çoxdur. Rusiyanın bərpa edilməsi məsələsinin Gürcüstana dəxli yoxdur. Çünki Gürcüstan istiqlaliyyətinin təsdiq ediləcəyi həqiqətdən ibarətdir.*

*Avalişvili və Qambaşidze"*

**İngiltərə qatarı**

Yanvarın 2-sində Batumdan Tiflisə 57 vaqondan ibarət İngiltərə heyətinin qatarı varid olmuşdur [gəlmişdir]. Bu qatarda səhiyyə xidmətçiləri, dəvacat [davadərman] və ərzaq şeyləri gətirilmişdir. Andreyevski küçədə olan üç mərtəbə ev, xəstəxana üçün vagüzar edilmişdir [ayrılmışdır].

**Polkovnik Şmaqaylovun işi**

Dzeqvin körpüsünü patlatmaq işində polkovnik Şmaqaylov edam cəzasına məhkum edilmişdi. Şmaqaylovun vəkili təzədən şikayətə başlamışdır.

**İstidanın rəddi**

Azərbaycan Hökuməti, Tiflis müəssisələrində Zaqatal nahiyəsinə dəxli olan sənədləri Gürcüstan Hökumətindən istəmişdi. Gürcüstan Hökuməti isə Azərbaycan Hökumətinin bu istidasını [xahişini] rədd etmişdir.

## BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ
## VI

Təəccüb burasıdır ki, quyuçuluğu əhli-kəsəbəyə [zəhmətkeşlərə] haram edən hökumət, həman quyuçuluğu böyük firmalara halal etmişdir. Bu firmalar buruq quyularının qonşuluğunda kamali-asudəliklə əl quyularını da işlətməkdədirlər.

Əl quyuçuluğu ilə məşğul olan firmalardan bir neçələrini burada zikr edirəm. Məsələn: Benkendorf və Kompaniya (уч. 5 Б и 16 Б), rus şirkəti "Neft" (уч. 221, Б), "Bruno" (VII гр. Бл.), "Bəradərani-Nobel" şirkəti (уч. 27, Бн. и 24 Бл.), "Bakı Neft Cəmiyyəti" (IV, V, VI, VII, VIII въ Бл.) və sairləri.

Bundan əlavə, bir neçə il bundan əqdəm [qabaq], "Kazbek" və "Şimal" şirkətləri Balaxanı yerlərində (уч. 18, 19, 20) dərin buruqlardan bir şey hasil edəmməyib, müflis çıxdılar və yerlərini də atdılar. Bu yerləri Torpaq İdarəsi təhvilə alıb, xəzinə mənfəəti mülahizəsi ilə əl quyuçularına icarəyə verdi ki, onlar da yuxarı qatların neftini çəkib istifadə etsinlər. İştə bundan görünür ki:

1) sabiq hökumət buruqçular (firmalar) ilə quyuçulara bir gözlə baxmamışdır və

2) hamı yerlər dərin buruqlara qabiliyyəti olmayıb, bir çoxu əl quyuları üçün əlverişlidir.

Bəs [deməli], əl quyularından heç bir vəchlə əl çəkmək olmaz.

"Quyuları torpaqlamaq" əmri sadir olduğu [meydana çıxdığı] əsnada, rəsmi məlumata görə, Abşeron ətrafında 11176 neft quyuları olmuşdur. (Balaxanıda 4949, Binəqədidə 1548, Sabunçu-Ramanıda 472, Xırdalanda 1999, Şubanıda 2208.) Bu quyulardan 3 ayın ərzində 1284-ü torpaqlanıb, 2600-ü də təzə ildən torpaqlanması üçün siyahı tərtib verilmişdir. Bu macəra, quyuçuları öylə bir həyəcana saldı ki, biçarələr kimdən və haradan imdad istəməyi çaşdılar. Bir çox ərizələr verildi, şikayətlər olundu. Nəticə də bu oldu ki, quyulara ağızlıq qayırmaq fərmanı verildi.

Fərz edəlim ki, quyuların hamısını torpaqla basdırdılar. Bundan nə fayda hasil olar? Məsələyə diqqət olunarsa, bu aşağıdakı ağır nəticələr hasil olar:

1) Quyuçuluq işi ilə məşğul olanların içində öylələri vardır ki, varyoxlarını, hətta arvadların zinətini belə satıb quyuçuluğa sərf etmişlər. Müflis olanları da az deyil. Bu gün quyular bunların əllərindən alınarsa, çarəsizlikdən beş min sahibkar aclıq bəlasına məhkum olarlar.

2) Sahibkarlardan başqa 30 min fəhlə və əmələcat [işçilər] işdən məhrum qalıb cinayətə əl qatmağa məcbur olacaqlar. Keçmiş illərin polis bəratülqövllərinə [protokollarına] baxılarsa, bir çoxunda: *"Bu gün şəhər və mədənlərdə heç bir cinayət üz verməmişdir"* – yazılmışdır. Buna səbəb o olmuşdur ki, cinayət əhlindən bir çoxunun quyuçuluğa başı qarışıb, mərdimazarlıqdan da əl götürmüşlər. Quyular hərgah bağlanarsa, köhnə canilər yenə köhnə sənətlərinə qayıdıb camaatın asayişinə də xələl qatacaqlar. Bu qədər fəhlə və əmələcatın 2%-i rus, 1%-i erməni, 1%-i gürcü və 96%-i də müsəlmandır. (Baxınız nə qədər müsəlman işsiz qalıb cinayətlə məğul olacaqdır.)

3) Hərgah hər quyunun məsarifinə azı bircə min manat pul xərclənibsə, 11 min quyuya əqəllən [ən azı] 11 milyon manat pul xərclənmiş olur. Quyular torpaqlanarsa, camaatın bir bu qədər qəpik-quruşu torpaq altında batıb gedəcəkdir. Məsarif pullarının 6%-i erməniyə, 3%-i ruslara, 1-%-i gürcülərə, 90%-i müsəlmanlara mütəəlliqdir [məxsusdur]. Yəni müsəlman əhli-kəsəbəsinin [zəhmətkeşlərinin] 10 milyona qədər pulu batıb gedəcəkdir.

4) Quyular basdırılarsa, illik neft məhsulatının miqdarı 40-50 milyon put azalar. Bu isə, neftin daha artıq bahalaşmasına bais olacaqdır. Bu barədə hökumət özü çox cidd-cəhd edir ki, neft artıq bahalaşmasın. Zira dəmir yollarından əlavə, bir çox dövlət fabrika və zavodları məhz neftlə işləyirlər. Əlavə, neft bahalığının bir çox fabrika məhsulatına da sirayəti [təsiri] vardır.

5) Söz yox ki, neft azaldıqca xəzinə varidatı da – ki ibarət olsun yerlərin icarə haqqından və yaxud put hesabı gəlirdən (попудный сбор) – bunlar da azalacaqdır.

6) Quyuların bağlanması yüzlərcə neft mənqulələrinin [boru kəmərlərinin] (нефтепроводы) qapanmasına bais olacaqdır.

7) Quyuçulara daha artıq təsir edən nöqtə, həman quyuların, sahibləri məxarici ilə doldurulmasıdır. Həm mədaxildən [gəlirdən] məhrum, həm də quyuları torpaqlamaq məxaricini [xərcini] verməyə məcburdurlar.

Qanunun bir maddəsi də quyulara adam sallanılması qadağanlığıdır. Bu maddə, guya insaniyyətpərvərlik nöqteyi-nəzərindən qoyulmuşdur ki, kənkanlar quyuların içərisində qaz və sair bəlayi-nagəhandan [gözlənilməz qəzadan] həlak olmasınlar.

Əlbəttə, insan ömrünə qiymət qoymaq lazımdır. Lakin sənətlər arasında və ələlxüsus mə'dəniyyat [mədənçilik] işlərindən heç biri fədakarlıqsız olmayıb. Doğrudur, bu gün gərək cürbəcürə çarə və tədbirlər ittixaz olunsun [tətbiq edilsin], ta ki, bu insan həlakəti ildən-ilə az ittifaq düşsün [təsadüf edilsin]. Amerika və rumın mə'dənlərində həman çarələr ittixaz olunmuşdur. Bizim mə'dənlərdə də o çarələrdən, o qanunlardan dəb salmaq lazımdır.

O gündən ki, quyuya adam sallamaq məsələsi qadağan olmuşdur, işləri yarımçıq qalmış quyuçular naəlaclıqdan xəlvətcə iş görməyə şüru etmişlər [başlamışlar]. Böylə ki, hökumət məmurlarını bəkləmək üçün ətrafa gözətçiləri düzüb, kamali-əmniyyətlə quyularda iş görürlər. Hətta gündüzləri mümkün olmadığı halda, gecələr fənər işığına quyuları qazırlar. Məlumdur ki, böylə xəlvət və gizlicə quyu qazmağın xətası da çox olar. Yaxşısı bu deyilmi, rumın qanunlarını burada da icra edəydilər. Ta ki, gecələr qaranlıq quyularda işləyən kənkanlar boğulub həlak olmayaydılar.

Mə'dənlərdə tərtib verilmiş həlakət cədvəllərinə baxılarsa, bu məlumatdan anlaşılar ki, quyularda həlak olanların ədədi böyük mədənlərdə həlak olmuşlardan iki-üç dəfə azdır. Məsələn: 1915-ci ildə əl quyularında 17 nəfər adam tələf olmuşdur ki, bu da ümum fəhlə ədədinə nisbət 0,13 faizdir. Halbuki, böyük mə'dənlərdə onların qədəri 2,7 faiz olur. (Yəni böyük mə'dənlərdə 20 dəfə artıq ittifaq düşür.) Bəs əl quyularında o qədər can tələf olmayıb ki, ondan ötrü quyulara adam sallamağı qadağan etsinlər.

*Fərhad Ağazadə*

## QƏZETƏLƏRDƏN

**Hindistan üzərinə hücum**

Moskvadan Xarkov qəzetələrinə xəbər verilir: Moskvada təşkil edilmiş birinci mitinqlərdə Şura qoşunlarının Hindistan üzərinə hücum etməsi məsələsi müzakirə edilmişdir və bununla Şura Hökuməti İngiltərəyə böyük zərbə vurmaq istəyir. Sameinlər [dinləyicilər] bu fəqərəni [hadisəni] eşitdikdən sonra bu rəyə gəlmişlər ki, imperator Petri-əvvəl [Birinci Pyotr] və Pavelə müyəssər olmayan bu iş, Şura qoşunlarına müyəssər olacaqmış. Zira Şura qoşunlarının məqsədi, məzlum millətləri zülümdən azad etmək imiş.

**Berlində matrosların xürucu [iğtişaşı]**

Berlindən simsiz teleqrafla xəbər verilir: Berlin komandanlığı imarəti qarşısına külli matrosların gələrək komendant Velsə bir tələbnamə təqdimi ilə məvaciblərinin bilatəxir [gecikdirmədən] vaxtında verilməsini israr etmişlərdir. Komendant Vels bu əhvaldan həyəcana düşərək dərhal pulemyotlarla qarovulda duran nəfəratı

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 7 yanvar (Çərşənbə axşamı günü) tarixli 81-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

[əsgərləri] tələb eylər, fəqət bunlar gəlməmişdən matroslar komendantı, onun acudanı [adyutantı] Fişeri və digər bir nəfəri saray tövlələrinə apararlar. Nəhayət bu xüsusda matroslarla hökumət ricalı [adamları] arasında olan danışıq komendantın qulluqdan çıxarılması və məhbusların azad edilməsi ilə nəticələnir. Atışma zamanı bir matros qətl [edilmiş], iki nəfəri isə yaralanmışdır.

Berlin – (Yenə simsiz teleqrafla xəbər verilir.) Dekabrın 21-də sübh zamanı qvardiya hissələri matrosların sakin olduqları [qaldıqları] imarəti əhatə edirlər. Matroslara silahlarını təslim təklifi edilir. Fəqət matroslar bu təklifi rədd etdiklərindən, qvardiya hissəsi imarətə hücum edir. Bunların arasında müsadimə [toqquşma] davam edərkən, qvardiya hissələrindən bəzi nəfərlər matrosların tərəfinə keçirlər. Top qumbaralarından imarət artıq dərəcədə mütəzərrir olmuşdur [ziyan çəkmişdir]. Səhər saat 10 radələrində imarətə qarşı açılmış olan atəş dayandırılır. Nəhayət, şiddətli top atəşinə məruz qalan matroslar güzəştə məcbur olurlar. Saat 11-də bunların arasında razılıq əmələ gəlir. Matroslar təslim olub ibtida birər-birər, sonra dəstələrlə imarətdən çıxıb gedirlər. Matroslar tərəfindən təslim edilən silahları qvardiya qışlalarına [kazarmalarına] göndərirlər. Matrosların tələfatı 63 nəfər göstərilsə də, fəqət hərbi dairələrdə yalnız qətl olunan matrosların ədədi həştadadək təxmin edilir. Hökumət qoşunlarının da tələfatı olmuş, fəqət qədəri hənuz bəlli deyildir. Sübh vaxtı matrosların olduğu imarət yanında külli əhali var imiş və bunlar birdən-birə imarət həyatinə soxulmuşlarsa da, qoşunlar tərəfindən dərhal puskürdülmüşlər.

Berlin – "Forverts" qəzetəsinin bu hadisət barəsində verdiyi son məlumat böylədir: Matroslar və onların həmfikirləri tələb edirlər ki, Ebert və Haaze hökuməti istefa verib və yerlərini Ledebur Libknextə versinlər. Firqələrin əlaqəsi kəskin halda davam edir. Dəmiryol təraddüdatı [gediş-gəlişi] adi halında olmadığı üçün Məclisi-Müəssisandan qabağa təyin edilmiş olan müstəqil demokratların iclası baş tutmayır.

**İngilislərin hazırlığı**

Qara dəniz iskələlərinə ingilislərin külli nəqliyyat gəmiləri varid olmuşdur [gəlmişdir]. Bunların yükü tank, zirehli avtomobil, pulemyot, tüfəng, patron və sair ləvazimi-hərbidən ibarətdir ki, bunlarla ingilislər bolşeviklərlə mübarizə edəcəkdir.

**Ukraynada**

Petlyuraçılar Kiyev, Xarkov və Yekaterinoslavı işğal etmişlərdir. Yekaterinoslavı işğal üçün edilən müharibə tam üç gün davam etmişdir. Petlyura qoşunları könüllüsü və getman dəstələri ilə müharibə edirmişlər. Petlyura dəstəsinə sərvətli siniflər (burjuaziya) və tərəqqipərvərlər [proqressistlər] də mülhəq olmuşlardır [birləşmişlər].

**Moskvada böyük yanğın**

Moskvada Kursk vağzalında düşmüş olan yanğından dörd böyük anbar yanmışdır. Bu yanğının xəsarəti bir neçə milyon manatdır.

**İngilislərin bolşeviklərlə müharibəsi**

Riqa xəlicində [körfəzində] ingilislər bolşeviklərə böyük zərbə endirmişlər. Dəniz müharibəsində bolşeviklərin bir paraxodları qərq olub, bir paraxodları isə komandası ilə bərabər Müttəfiqlərin tərəfinə keçmişdir.

**İngilislər Kronştadtda**

Müxtəsər bir müsadimədən [qısa bir toqquşmadan] sonra ingilislər Kronştadtı işğal edib orada olan bütün bolşevikləri çıxarmışlardır. Bolşeviklərin burada külli qüvvələri var imiş.

**Odessada**

Hal-hazırda Odessa şəhəri Müttəfiqlərin və Könüllü qoşunların əlindədir. Petlyuraçılar Odessanı işğal etmək istəsələr də, lakin yenə özləri bu işdən vaz keçib demişlər ki, onlar Könüllü qoşunların əleyhinə iş görsələr də, hər halda Mütəffiq qoşunların qarşısına çıxmayacaqlardır.

**Rusiya məsələsi**

London – (Simsiz teleqraf xəbəri) "Voskresnaya qazeta" xəbər verir: Mövsuq [etibarlı] mənbələrdən verilən məlumata görə, Rusiya məsələsi Etilaf [Antanta] dövlətləri ricali-hökumətləri [hökumət adamları] arasında ciddi surətdə mövqeyi-müzakirəyə qoyulmaqdadır. Bu barədə qəti qərar qəbul edilməmişdir. Fəqət hamısı bu rəyə gəlmişlər ki, Rusiya məsələsi həlli təxir qəbul etməz bir haldadır və təcilən onun həll edilməsi lazımdır. Amerika rəisi-cümhurisinin [prezidentinin] Londona vürudu [gəlişi] ilə Mütəffiqlərin Rusiya xüsusunda lazım gələn iqdamatda [təşəbbüsdə] bulunması gözlənilir. Neçə vaxt bundan əvvəl bolşevik qüvvəsinin qədəri barəsində qəmgin xəbərlər yetişirdi və bu xəbərlər məhafili-siyasiyyəni [siyasi dairələri] düşündürürdü, amma indi anlaşılır ki, bu xəbərlər mübaliğəli imiş. Bolşeviklərin qüvvəsi üç yüz min müharibəyə yarar saldatlardan artıq deyildir. Bolşevik qoşunları ilə Kubanda təşkil edilmiş olan qoşunların miqdarı yüz min birinci sinif əsgərlərdən ibarətdir ki, Müttəfiqlərin müavinətinə məzhər [köməyinə nail] olurlar.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Ərazi və Dövləti Əmlak [Dövlət Əmlakı] nazirinin Azərbaycan balıq vətəgələrinin icarəyə verilməsi haqqındakı məruzəsini istema etdikdən [dinlədikdən] sonra Şura qərar vermişdir ki:

1) Kanuni-əvvəlin [dekabrın] 28 və 29-da vüqu bulmuş Azərbaycan balıq vətəgələrinin müsabiqə ilə icarəyə verilməsini təsdiq etməli;

2) Müsabiqə ilə icarəyə verilməmiş vətəgələri təsərrüfat qaydası ilə icarəyə verilməyi Ərazi və Dövləti Əmlak nazirinə tapşırmalı;

- Maliyyə naziri Azərbaycandan əcnəbiyyəyə aparılacaq balığa (seld) [siyənək balığı] vergi təyin olunmasını təklif etmişdir. Azərbaycandan aparılacaq seldin putundan bir rublə gömrük alınacaqdır.

**İngilis komandanlığının təşəbbüsatı**

İngiltərə komandanlığı Şurayi-Vükəlaya müraciətən Dadaşovun dəniz kənarındakı evi və ticarət məktəbi evini məzkur [adıçəkilən] komandanlıq ehtiyacatı üçün verilməsi haqqında təşəbbüsatda bulunmuşdur.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Fəhlə və material baha olduğuna görə, 1919 sənəsi dəmiryol tə'rifələri [tarifləri, qiymətləri] həman qərar üzrə qalacaqdır.

- Hal-hazırda Maliyyə Nəzarətində hökumət idarələrinin yuriskonsullarından [hüquq məsləhətçilərindən] ibarət bir komissiya işləməkdədir. Bu komissiyanın qəsdi, neft firmalarının etibarnamələri məsələsini həll etməkdir. Bunların vaxtı qurtardığına görə təzədən təcdid edilməsi [yenilənməsi] lazım görülmüşdür. Neft mə'dənlərinə lazım gələn mallar üçün para buraxılması məsələsi də bununla əlaqədardır. Etibarnamələrini təzələyən firmalar bilamümaniət [maneəsiz] təxsisat [pul, vəsait] alacaqlardır.

- Ticarət və Sənaət [Sənaye] Nəzarəti məhəlli [yerli] və gürcü müəssisələri ilə müqavilənamə əqd etmişdir [bağlamışdır] ki, neftə əvəz olaraq putu 175 manatdan 200 manata qədər qənd gətirsinlər.

## ORDAN-BURDAN

### Sülh Konfransında -1-

Hamı yığılıbdır. Dünyanın hər tərəfindən adamlar vardır. Aşnalarımızdan daşnaklar, Rus Milli Komitəsinin adamları və Bakı "sosialistləri" dəxi burada hazırdırlar. Bizimkilər də yığılıb kənarda bir küncə qısılıbdırlar. Daşnaklar, Amerika və Fransa adamları ilə nə barədə isə məhrəmanə danışıb bizimkilərə tərəf işarələr edirlər. Bunun nəticəsində Amerika və Fransa adamları "larnet"lərini gözlərinə tutub bizimkilərə diqqətlə tamaşa edirlər. Və öylə tamaşa edirlər ki, guya "dəvə, nalbəndə baxır."

Zəng çalınır, hər kəs öz yerini tutur. Sədr, məclisin açıldığını elan edir. Ruznameyi-müzakirat [müzakirə gündəliyi] oxunur. Məclis əhlinə söz verilir. Əvvəl-əvvəl daşnaklardan biri söz alıb kürsiyi-xitabətə çıxır və deyir:

Daşnak: Həzərat! Sizdən sual edirəm, mədəniyyət aləminin mədəni nümayəndələrindən təşəkkül etmiş olan bu mədəni məclisdə əcəba quldurların, baş kəsənlərin və qarın yırtanların nə işi vardır və onlara kim izin veribdir ki, buraya gəlib bu pak məclisi qanlı əlləri ilə napak edirlər?! Mədəniyyət naminə rica edirəm ki, quldurlar bu məclisdən qovulsun. Zira onların yeri bura deyildir, bəlkə həbsxanadır!

RMK (Yəni Rus Milli Komitəsi): Daşnakların təklifinə biz də şərikik.

BAKUS (Yəni Bakı "sosialistləri"): Biz də daşnakların təklifində şərikik.

Sədr: Quldurlardan məqsud kimdir?

Daşnak: Bax, o küncdə əyləşənlər! – deyib bizimkilərə işarə edir.

Sədr (bizimkilərə): Əfəndilər, deyirlər ki, siz quldursunuz!

Bizimkilər: Yalan deyirlər. Biz quldur deyilik.

Sədr: Öylə isə, daşnakların təklifini səsə qoyuram. Hər kəs bu adamların quldur olduğu və quldur olduqlarına görə də məclisdən çıxarılması tərəfdarı isə, əlin qaldırsın.

İngilislər, firənglər, amerikanlar və sair Yevropa və Amerika millətləri nümayəndələri məsələdən xəbərdar olmadıqlarına görə bitərəf qalıb, səsdə iştirak etməyirlər. Əl qalxızanlar bunlar olur: daşnaklar (iki əlləri ilə), RMK-lər və BAKUS-lar.

Sədr: İndi də hər kəs bu adamların quldur olmadıqlarını və ona görə də məclisdə qalmaqlarını iltizam edirsə [lazım bilirsə], əlin qalxızsın.

Gürcülər, dağıstanlılar, Osmanlı türkləri, hindlilər, əfqanlılar, türkmənlər, Volqa boyu müsəlmanları, qərəz, ərəb əmirləri ilə İran vəzirlərindən başqa hamı islam nümayəndələri əl qalxızırlar.

Əksəriyyət bu tərəfdə olduğuna görə, bizimkilər məclisdə qalır. Daşnaklardan biri təkrar izin alıb kürsüyə tərəf yüyürür və üzünü ümum yevropalılara tutub mütəğəyyir və mütəhəyyic [təbdən çıxmış və həyəcanlı] bir surətdə, başqol oynada-oynada, dişlərini qıca-qıca və çığıra-çığıra deyir:

Daşnak: Ermənistani-kəbir [böyük Ermənistan] mənə qənim olsun, Ararat dağı üstümə yıxılsın, Andranikin qəzəbinə gəlim, daşnaksaqan olmayım hərgah yalan deyirəmsə, siz yevropalılar çox məzəli adamlarsınız!!! Nəinki məzəli, hətta açıq-açığına deyə bilərəm ki, sizin işiniz "xata-bala"dır! Siz getdikcə bizim ümidlərimizi puç edirsiniz. Biz ümid edirdik – ümid nədir ki – lap yəqinimiz idi ki, biz sizə bu quldurları nişan verən kimi, siz həman saat onları qovacaqsınız! Amma siz bizim sözümüzə etibar etmədiniz. Deməli, bu əlli ilin ərzindəki zəhmətlərimiz hədər getdi! Deməli, siz bizim bu qədər şikayətimizlərə əlli ilin ərzində "hə, hə" deməklə məhz öz politikalarınızı yeritmək istəyirmişsiniz! (Üzünü BAKUS-lara tutur:) Ey Rusiyanın sosialistləri! Görürsünüzmü burada oturan yevropalılar həqiqi demokrat deyildirlər. Bəlkə hamısı imperialistdirlər! Bəs niyə durubsunuz, niyə qışqırmayırsınız ki, daloy [məhv olsun]! Niyə bolşevikləri çağırmayırsınız?! Ey Rus Milli Komitəsi! Rusiyanı dağıdan həmin bu yevropalılar oldu! Qafqazı tatarlara və gürcülərə verən bunların Tomsonları oldu. Samasud! Samasud! [Linç edilsinlər!]

Sədr: Cənab natiq, təvəqqe edirəm ki, provokatorluq etməyəsiniz, vəilla [yoxsa], sizi kürsüdən düşürtməyə məcbur olaram.

Daşnak: (Daha yanıqlı) Bəs görünür siz bizləri ələ salırmışsınız, – deyib qabağındakı stola bir yumruq vurur.

Sədr: Cənab natiq, stolu sındırsanız, qiymətini verməyə məcbur olacaqsınız.

Daşnak: Cəhənnəmə sınsın! – deyib bir-iki yumruq da vurarkən yevropalıların acığı tutub: – Bu nə vəhşi şeydir, bunun özü quldura oxşayır, – deyib tələb edirlər ki, natiq kürsünü boşaltsın. Daşnaklar, RMK-lər və BAKUS-lar səsküy salıb çığır-bağır edirlər və öz aralarında məsləhətləşirlər. Daşnaklar həmfikirlərini qızışdırıb təhrik edirlər ki, bizimkilərin qolundan tutub zorla bayıra çıxartsınlar. RMK-lər məsləhət görürlər ki, Biçeraxovun qoşunlarını köməyə çağırsınlar. BAKUS-lar deyirlər ki: Hələ qan tökmək yeri deyildir. Statitçnı kamitet əmələ gəlib zabastovka elan edilsin.

Sədr, zəngi çalıb qışqırıq salanları sakit olmağa məcbur edir.

*Filankəs*

## BAKI XƏBƏRLƏRİ

Kanuni-əvvəlin [dekabrın] 26-sında (köhnə qayda ilə) Realnı məktəbin axırıncı sinfinin mütəallimləri [şagirdləri] həman sinfin fəqir və biçiz [yoxsul] şagirdləri nəfinə [xeyrinə] müsamirə tərtib verəcəklərdir.

**Arakelyanın vəfatı**

Bakıda ingilislər tərəfindən həbs edilib, Ənzəliyə göndərilmişlərdən olan sabiq Bakıdakı diktatura üzvü Arakelyan səpmə yatalaq xəstəliyinə düçar olub, Ənzəli xəstəxanasında yatmışdı. Aldığımız məlumata görə, Arakelyan 5 kanuni-sanidə [yanvarda] vəfat etmişdir.

**Bakıdan ötrü odun**

Ərzaq Nəzarəti Xudat mövqifindəki [stansiyasındakı] Rılski mülkü müdirinə Bakı şəhərinin ehtiyacatı üçün 9 vaqon odun gətirməyə izin vermişdir.

**Mal mübadiləsinə dair**

Ticarət və Sənaye Nəzarəti cənbində [nəzdində] Azərbaycan Hökuməti qətnaməsi mövcibincə [əsasında] bir komisyon təşkil edilmişdir ki, Azərbaycandan əcnəbiyə mal və ərzaq aparmaq üçün vəsiqə verir. Gömrük idarəsi də Azərbaycandan azad surətdə əcnəbiyə balıq aparmaq üçün vəsiqə verir.

**Bakıya ərzaq vürudu [gəlməsi]**

Ərzaq Nəzarətinin statistika məlumatına görə, kanuni-saninin [yanvarın] 5-ində 5971 put buğda, 180 put un, 204 put kartof, 583 put arpa, 660 put saman, 4500 put odun gətirilmişdir.

* Kanuni-saninin 5-ində Ənzəlidən varid olmuş "Dağıstan" vaporunda ingilis ordusu ehtiyacatı üçün 7 min put növbənöv mal gətirilmişdir.

* Mərkəzi Ev Komitəsinin iaşə məntəqəsi xəbər verir ki, biçiz [yoxsul] müsəlman əhalisi üçün ərzaq şeyləri buraxmaqdan ötrü şöbə tərəfindən bir məntəqə açılmışdır. Adambaşına girvənkəsi iki manatdan un, düyü, noxud və lobya buraxılır. Ehtiyacı artıq olan kasıblara Ev Komitəsinin şəhadətnaməsi ilə məzkur [adıçəkilən] şeylər pulsuz buraxılacaqdır. Ev komitələrinin şəhadətnamələri uçastok komitə[si] tərəfindən təsdiq edilirlər. Ərzaq şeyləri buraxan şöbə, uçastok komitələrindən xahiş etmişdir ki, ev komitələri vasitəsi ilə müsəlman əhalisini xəbərdar etsin. Məntəqə müvəqqətən Kamenisti və Armyanski küçələrin küncündə, 144 nömrəli evdə vaqedir. Səhər saat 9-dan 3-ə qədər açıqdır. Həman yerdə hamıdan ötrü çayçı dükanı açılmışdır. Qəndlə çayın stəkanı 20 qəpik, çörək ilə 50 qəpikdir.

## MƏRKƏZİ EV KOMİTƏSİNDƏ

* Mərkəzi Ev Komitəsi cənbindəki hifzüssihhə [gigiyena] şöbəsi ev komitələri səhiyyə şöbələrinə müraciətən rica etmişdir ki, şəhərdə gün-gündən artmaqda olan müsri [yoluxucu] xəstəliklərin önünü almaq üçün lazımi tədabiri ittixaz etsinlər [tədbirləri görsünlər].

* Həman hifzüssihhə şöbəsi kanuni-saninin 7-si axşam saat 7-də bütün ev komitələrinin sihhiyyələrinin iclasını dəvət etmişdir. İclasa gələcək zəvat [şəxslər] öz dairələri barəsində məlumat gətirməlidirlər.

**Azərbaycan Parlamanında**

Azərbaycan Parlamanının "Müsavat" fraksiyası iki təqrir [qanun təklifi] vermişdir. Birisi Lənkəran hadisatı barəsində hökumətə, digərisi Bakı ətrafındakı fəhlələrin əhvalı haqqında Məsai Nəzarətinə [Əmək Nazirliyinə].

## FƏHLƏLƏRİMİZ HƏYATINDA

**Ramana fəhlələrinin iclası**

Caharşənbə [çərşənbə] günü kanuni-saninin [yanvarın] 1-də, Ramana "Nəşri-maarif" məktəbinin binasında, Ramana müsəlman fəhlələrinin iclası vaqe olaraq, məclis açılır. Saat 4 tamamda ittihadiara [yekdillik] ilə sədrliyə Mirdaməd Məhəmmədzadə, katibliyə Mirfəttah Mirəhədzadə intixab edildilər [seçildilər].

İclas[d]a 500-dən ziyadə fəhlə və kəndli iştirak edirdi. Parlaman Fəhlə komissiyası əzasından [üzvlərindən] Cavad Məlik-Yeqanov və tələbələrimizdən Cəfər Cabbarzadə ümumi vəziyyət, fəhlələrin halı və hökumətin fəaliyyəti haqqında nitqlər irad edib [çıxış edib], məlumat verirlər. Sonra kəndli və fəhlə yoldaşlar böylə bir qətnamə çıxarırlar:

1) Biz, Ramana dairəsində yaşayan kəndli və fəhlə yoldaşlar, dəruni-qəlbdən [səmimi-qəlbdən] Azərbaycan Parlamanını təbrik və ona etimadımızı izhar ediriz.

2) "Znamya truda", "Naşe vremya", "Vperyod" qəzetələrinin, millətlərin ziddinə çalışan müfəttinanə [fitnəkarcasına] mündəricat və məqalatına [məqalələrinə] etiraz ediriz.

3) İngiltərə, Amerika, Fransa və ümumcahan demokratlarına teleqrafən rica ediriz ki, üç milyonluq müsəlman və azəri türklərinin azadlığı və Azərbaycan Hökumətinin təsdiqi üçün Konfransa göndərilən nümayəndələrinə yardım göstərsinlər.

4) Keçən yekşənbə [bazar] günü Fəhlələr Konfransında təklif olunmuş tətil komitəsinə təşəkkür məsələsinə qarşı komitə tərəfindən təşəkkür əvəzinə yalnız fəhlələrin izhari-etimad etmələri [etimad bildirmələri] təklif olunmuşdu. Sonradan qəzetələrdə bir səslə müsəlman əmələlərinin [fəhlələrinin] belə iclasa etimad etmələrini oxuduq. Bu doğru deyildir. Zira müsəlman fəhlələri iqtisadi məsələlərdə ümum fəhlələrlə əlbəəl getməklə bərabər, siyasi məsələlərdə kəndi hökumətinin arxasında dayanıb, o hökuməti kəndinə düşmənədd [hesab] edən komitəyə etimad izhar edəməzdi, etmədi də. Binaənileyh [ona görə də] bitərəf qalmışdılar.

5) Azərbaycan Parlamanında Kəsbkarlar [Həmkarlar] İttifaqına verilmiş üç yeri İttifaq qəbul etməyib, Parlamana ümum demokratiya namından etiraz etmişdi. Biz müsəlman fəhlələri İttifaqın bizim adımızdan xudsəranə [özbaşına] etiraz etməsinə etiraz etməklə, həmin üç yerin ikisi[nin] müsəlman fəhlələrinə verilməsini rica ediriz.

6) Nəhayət qət olunur ki, yaxında ümum müsəlman fəhləri ictiması [yığıncağı] çağrılsın.

*Sədr: Mirdaməd Məhəmmədzadə*
*Katib: Mirfəttah Əhədzadə*

**Suraxanı fəhlələrinin iclası**

Yenə kanuni-saninin [yanvarın] 1-ində Suraxanı müsəlman fəhlələri, "Xalq Yurdu" binasında Məhəmmədhüseyn Babayevin sədarəti [sədrliyi] ilə bir iclas tərtib vermişlərdir. Bir neçə natiq fəhlələrin həyatından, vəziyyətindən, azərbaycanlıların istiqlal arzusundan və bu uğurda vermiş olduğu qurbanlar və axıdılmış olan qanlardan bəhslə, o gün istiqlala doğru birinci qədəm qoyulmuş və amalımıza da yaxınlaşmış olduğumuzu, bundan sonra da istiqlalımızın baqi [əbədi] qalması, möhkəmləşməsi uğrunda nə qədər fədakarlıq lazım gəlsə, bir an geri durmayacağımızı təsvir edirlər.

Nəhayət iclas qərar verir ki:

1) Ən yaxın zamanda ümummüsəlman fəhləri qurultayı dəvət edilsin.

2) Müsəlman demokratiyası namından [adından] ümumcahan demokratiyasına teleqraflar çəkilərək, Azərbaycan türklərinin istiqlalı və Cümhuriyyətimizin təsdiqi məsələlərində dünya füqərayi-kasibəsi [proletariatı] və cahan yoldaşlarımızdan müavinət və müzahirət [yardım] gözlədiyimizi və onlara əmin olduğumuzu bildirilərək kömək istənilsin.

3) Parlaman tərəfindən Kəsbkarlar İttifaqına verilən üç yerdən ikisinin müsəlman fəhlələrinə verilməsi xahiş edilsin.

4) Millətlər arasına ədavət saçan qəzetələrin, əzcümlə [o cümlədən] "Vperyod", "Naşe vremya", "Yedinaya Rossiya" və sairə kimi qəzetələrin hərəkatı müqabilinə protesto edilsin.

5) Şəhərdəki Fəhlə Konfransına nümayəndələr göndərilsin.

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209*

**Qabil diş qayıran Mirzə Xəlil Canıbəyzadə**

Qızıldan və sairədən hər cür əla dişlər münasib qiymətlə qayırır. Ünvan: Qubernski küçə, "İslamiyyə"nin sağ tərəfində ev nömrə 55.

*295*

**Doktor Rza bəy Sultanov Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

*2603*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Qoldqor-Fradkinin Diş müalicəxanası**

Dərya kənarında Başenni küçədə Ramazanovun 10 nömrəli evində qəbul edir hər gün saat 9-dan 2-yə kimi və 4-dən 7-yə kimi.

*2607*

**Həkimlərin xüsusi gecə və gündüz növbələri**

Ünvan: Bolşoy Moskva mehmanxanası, Qoqolevski və Torqovı küçələrin küncündə.

Telefon nömrələri 7-96 və 49-81. Naxoşların evinə gedirlər.

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

**Türk təqvimi Yeni və əski üsul ilə türk təqvimi**

Yaxın günlərdə Hökumət mətbəəsi rusca və türkcə yeni və əski üsullar ilə nəfis divar təqvimləri buraxacaqdır. Qiyməti münasib olacaqdır.

Müraciət üçün adres: Birjavaya küçədə Skobelevin evində Hökumət mətbəəsində və ya Parapetdə "Azərbaycan" qəzetəsi mətbəəsində.

*b-38 10-1*

**Təqvimi-islam [müsəlman təqvimi] Türkcə-rusca divar təqvimi**

1919-cu sənəyə məxsus olmaq üzrə Osmanlı, islam və rus aylarını, günlərini göstərən divar təqvimi bu günlərdə çapdan çıxıb, satılmağa başlamışdır. Hər gün sifarişlər qəbul olunur. Adres: Böyük Rus kəlisası [kilsəsi] yanında "Novruz" mətbəəsi.

*2625 3-1*

**Bakı Şəhər İstiqraz Cəmiyyətinin**

210 min manatlıq obliqatsiyası [istiqrazı] satılır bank müdiri Kamil bəy Səfərəlibəyovun yanında.

*2634*

Ümuri-Xeyriyyə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] Bakı qradonaçalnikliyinin [Şəhər İdarəsinin] nahiyəsində sakin olan [yaşayan] möhtac əhaliyə köməklik edən komissəsinin tərəfindən ümum Bakı qradonaçalnikliyinin kəndlərinin idarələrinə və Bakı uyezdlərinin Masazır, Saray, Corat və Pirəkəşkül kəndlərinin idarələrinə təklif olunur ki, bilatəxir [gecikmədən] öz kəndlərinin dövlətli və kasıb camaatının siyahısını tezliklə hazırlayıb Ümuri-Xeyriyyə nazirinin Bakı nahiyəsindən ötrü təyin etdiyi müdiri Həbib bəy Mahmudbəyova, Bakı Dumunun [Bələdiyyə Məclisinin] əvvəlinci mərtəbəsində olan idarəsinə pişni-had [təqdim] etsinlər, düyü və qeyri ərzaq almaqdan ötrü.

*Komissiya katibi: Məhəmmədəli Veysov*
*T-5*

**Müdir və baş mühərrir: Ceyhun bəy Hacıbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İrəvan: erməni-müsəlman məsələsi***

"Nikolay": 1894-1917-ci illərdə hakimiyyətdə olan Rusiya imperatoru II Nikolay nəzərdə tutulur.

***Teleqraf xəbərləri: Gürcüstan istiqlaliyyəti***

"Hərbiyyə nazirindən…": o dövrdə Gürcüstanın Hərbi naziri Qriqol Giorqadze idi.

***Bakı neft ticarəti və onun müxtəsərcə tarixi***

"…rus şirkəti «Neft»…": "Bakı Rus Nef Kompaniyası" nəzərdə tutulur.

"…(уч. 5 Б и 16 Б)…" və s.: mötərizə içindəki rusca ixtisarlardan "уч." sahə (uçastok), "гр." qrup (qruppa) deməkdir, "Бл." Balaxanı, "Бн." Binəqədi mədənləri mənasına gəlir.

***Qəzetələrdən: Hindistan üzərinə hücum***

"Petri-əvvəl": 1682-1725-ci illərdə hakimiyyətdə olmuş Rusiya hökmdarı nəzərdə tutulur.

"Pavel": 1796-1801-ci illərdə hakimiyyətdə olan Rusiya imperatoru I Pavel nəzərdə tutulur.

***Qəzetələrdən: Berlində matrosların xürucu***

"…saray tövlələrinə apararlar…": söhbət saraya məxsus atların, fayton və ekipajların saxlanması üçün imperator II Vilhelm dövründə Berlində tikilən binadan gedir. Bu binada hal-hazırda Berlin Musiqi Akademiyası, Berlin Şəhər Kitabxanası və Berlin Tarix Cəmiyyəti yerləşir.

***Qəzetələrdən: Ukraynada***

"Petlyuraçılar": Ukrayna Direktoriyasının rəhbərlərindən olan Simon Petlyuranın tərəfdarları nəzərdə tutulur. Qəzetdə "Petlyurovçular" kimi getmişdir.

"Petlyura": Ukrayna Direktoriyasının rəhbərlərindən olan Simon Petlyura nəzərdə tutulur. Qəzetdə "Petlyurov" kimi getmişdir.

***Qəzetələrdən: Odessada***

"Petlyuraçılar": Ukrayna Direktoriyasının rəhbərlərindən olan Simon Petlyuranın tərəfdarları nəzərdə tutulur. Qəzetdə "Petlyurovçular" kimi getmişdir.

***Qəzetələrdən: Rusiya məsələsi***

"Voskresnaya qazeta": Londonda nəşr olunan "Observer" [The Observer] qəzeti nəzərdə tutulur.

***Ordan-burdan***

"larnet" (lornet): tutacağı olan, qatlanan gözlük növü.

"Filankəs": "Azərbaycan" qəzetində bu imza Üzeyir bəy Hacıbəyliyə məxsusdur.

***Mərkəzi Ev Komitəsində***

"Sihhiyyə", yaxud "sihhiyyəçi": ibtidai tibbi biliklərə malik olan şəxs.

***Fəhlələrimiz həyatında Ramana fəhlələrinin iclası***

"…Konfransa göndərilən nümayəndələrinə…": Paris Sülh Konfransı nəzərdə tutulur.

***Fəhlələrimiz həyatında Suraxanı fəhlələrinin iclası***

"Yenə kanuni-saninin 1-ində…": Qəzetdə "kanuni-saninin" yerinə səhvən "kanuni-əvvəlin" getmişdir.